Təhsildə Keyfiyyət Təminatı Agentliyi

# 2025-ci ilin IV rübü üzrə ELEKTRON BÜLLETEN

# Mündəricat


| | |
|---|---|
| 3-5 | Xarici kvalifikasiyaların tanınması |
| 6-8 | Qeyri-formal və informal təhsilin tanınması |
| 9 | SEQA-ESG II layihəsinin bağlanış mərasimində və ENQA Baş Assambleyasında iştirak |
| 10-13 | Keyfiyyət təminatı departamentinin əməkdaşlarının təcrübə mübadiləsi və işgüzar səfərləri |
| 14 | Milli Aviasiya Akademiyasında təlim |
| 15 | Ali Təhsildə Keyfiyyət üzrə Beynəlxalq Konfrans (IQC 2025) |
| 16 | Akkreditasiya qiymətləndirilməsi üzrə ekspert hazırlığı |
| 17 | “Təhsil müəssisələrinin akkreditasiyası Qaydaları”ndakı dəyişikliklə bağlı “Azərbaycan müəllimi” qəzetinə açıqlama |
| 18 | Media nümayəndələri üçün 2025-ci ilin yekunlarına dair hesabat görüşü |
| 19-23 | Media ilə iş və vətəndaş məmnunluğu |
| 24-31 | Ekspert rəyi |

## Xarici kvalifikasiyaların tanınması

“Xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması Qaydaları”nın 6.2-ci bəndinə əsasən müəllimlik, mühəndislik və hüquqşünaslıq ixtisasları üzrə ərizəçinin Elm və Təhsil Nazirliyinin (ETN) tabeliyində fəaliyyət göstərən Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (TKTA) sifarişi ilə Dövlət İmtahan Mərkəzinin (DİM) təşkil etdiyi peşə tanınması üzrə sınaq imtahanında müvəffəqiyyət qazanması (keçid balını toplaması) tələb olunur.

19 dekabr 2025-ci il tarixində DİM tərəfindən keçirilmiş peşə tanınması üzrə sınaq imtahanında iştirak etmək üçün 188 nəfər namizəd qeydiyyatdan keçib, bunlardan 150 nəfəri imtahanda iştirak edib, yalnız 67 nəfəri keçid balını toplayıb. 18 ixtisas üzrə müvəffəqiyyət göstəricisi 45% təşkil edib. İmtahanda iştirak edən və keçid balını toplayan namizədlərin ixtisasları üzrə statistik məlumatlarını keçid vasitəsilə əldə edə bilərsiniz.

**188 nəfər**

**18 ixtisas üzrə 67 nəfər müvəffəqiyyət qazanıb**

**İmtahanda ixtisaslar üzrə müraciət sayına uyğun olaraq, ən çox imtina alan 4 ixtisasın (Hüquqşünaslıq, Yanğın təhlükəsizliyi mühəndisliyi, Həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi və İbtidai sinif müəllimliyi) TKTA tərəfindən ölkələr üzrə təhlili aparılıb. Belə ki, peşə tanınması üzrə sınaq imtahanında “Hüquqşünaslıq” ixtisası üzrə 75 nəfər iştirak edib, onlardan yalnız 37-si uğurlu nəticə əldə edib.**



## Xarici kvalifikasiyaların tanınması

### Ən çox müraciət edilən 5 ali təhsil müəssisəsi (ATM) üzrə göstəricilər




### Rusiya Federasiyasına dair ən çox müraciət edilən 5 ATM üzrə göstəricilər




### Ukraynaya dair ən çox müraciət edilən 6 ATM üzrə göstəricilər



# Xarici kvalifikasiyaların tanınması

## Serbiya Respublikasına işgüzar səfər



10–13 dekabr 2025-ci il tarixlərində TKTA-nın Xarici kvalifikasiyaların tanınması şöbəsinin böyük məsləhətçiləri Lalə Məmmədova və Gülər Manafzadə Serbiya Respublikasının Milli Məlumat Mərkəzinin nəzdində fəaliyyət göstərən Kvalifikasiyalar Agentliyinin fəaliyyət təcrübəsi ilə tanış olmaq məqsədilə Belqrad şəhərinə işgüzar səfər həyata keçiriblər.

Səfər çərçivəsində Serbiya Respublikasının Kvalifikasiyalar Agentliyi tərəfindən xarici kvalifikasiyaların tanınması sisteminin təşkili, bu prosesdə tətbiq olunan rəqəmsal platforma və platformalar, elektron sənəd dövriyyəsi mexanizmləri, peşə kvalifikasiyalarının tanınması, habelə sözügedən ölkədə mövcud olmayan ixtisaslara münasibətdə tanınma prosedurları, leqallaşdırma prosesi, şəhadətnamələrin hazırlanması və digər aidiyyəti fəaliyyət istiqamətləri ətraflı şəkildə müzakirə olunub.

Bundan əlavə, müxtəlif ölkələrdən əldə olunan kvalifikasiyaların ekspertizası zamanı qarşıya çıxan çətinliklər, onların həlli yolları, xüsusilə aidiyyəti sənədlərin autentikliyinin yoxlanılması, ixtisas ekvivalentliyin müəyyən olunması, tənzimlənən ixtisaslar üzrə imtahanların təşkil olunması mexanizmi barədə fikir mübadiləsi aparılıb.

Müzakirələr çərçivəsində hər iki qurumun mütəxəssisləri tərəfindən tətbiq edilən yanaşmalar, mövcud prosedurlar və çağırışlar barədə ətraflı müzakirə aparılaraq, təcrübə mübadiləsi imkanları qiymətləndirilib.

Qeyd edilən səfər xarici kvalifikasiyaların tanınması sahəsində institusional əməkdaşlığın təşviqinə, həmçinin Azərbaycan Respublikası ilə Serbiya Respublikası arasında bu sahədə təcrübə mübadiləsinin dərinləşdirilməsinə şərait yaradıb.



## Qeyri-formal və informal təhsilin tanınması

TKTA peşə təhsili üzrə qeyri-formal və informal təhsil vasitəsilə əldə edilmiş səriştələrin tanınması prosesini Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 5 avqust tarixli, 279 nömrəli Qərarı ilə təsdiq edilmiş "Vətəndaşların peşə təhsili üzrə qeyri-formal və informal təhsil formaları vasitəsilə əldə etdikləri bilik, bacarıq, səriştə və təcrübənin qiymətləndirilməsi və tanınması məqsədilə imtahanın keçirilməsi və onlara peşə ixtisasını təsdiq edən sənədin verilməsi Qaydası"na əsasən həyata keçirir.

### ➢ Peşə imtahanları və tanınma

2025-ci ilin IV rübü ərzində TKTA tərəfindən Qeyri-formal və informal təhsilin tanınması (QFİTT) istiqamətində formal təhsilə çıxış imkanları məhdud olan vətəndaşların 6 müxtəlif peşə ixtisasları üzrə qeyri-formal və informal yollarla əldə etdikləri bilik, bacarıq, səriştə və təcrübənin qiymətləndirilməsi və tanınması həyata keçirilib.

Əlavə olaraq, QFİTT istiqamətində tanınması həyata keçirilən ixtisas sayının 27-dən 31-ə çatdırılması məqsədilə 4 yeni peşə ixtisasının ("Qrafik-dizayner", "Kombi və kondisioner ustası", "Mebel ustası" və "Arıçı") tanınması istiqamətində fəaliyyətlərin həyata keçirilməsinə başlanılıb.

Qeyd edək ki, QFİTT üzrə tanınması həyata keçirilən müxtəlif ixtisaslar üzrə ümumilikdə 133 nəfər ilkin mərhələ olan nəzəri imtahanlara cəlb edilib, onlardan 88-i məqbul, 45-i isə qeyri-məqbul nəticə göstərib. Növbəti mərhələdə 72 nəfər praktiki imtahanlarda iştirak edib, onlardan 55-i məqbul, 17-si isə qeyri-məqbul nəticə göstərib. Yekunda 55 nəfər vətəndaş peşə sənədi əldə edib, 16 nəfər isə praktiki imtahanı gözləmə mərhələsindədir.









2025-ci ilin IV rübü ərzində "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2024-2026-cı illərdə əhalinin məşğulluq imkanlarının artırılmasına dair Tədbirlər Planı"nın "1.5. Məskunlaşması nəzərdə tutulan şəxslərin qeyri-formal və informal təhsil vasitəsi ilə əldə edilmiş bacarıqlarının qanunvericiliklə müəyyən olunmuş qaydada tanınması sahəsində işlərin görülməsi" bəndinə müvafiq olaraq, TKTA və Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin birgə tərəfdaşlığı çərçivəsində TKTA-nın təşkilatçılığı və maliyyə dəstəyi ilə Bakı şəhərində, eləcə də regionlarda 105 nəfər vətəndaşın "Aşpaz", "Qənnadçı-şirniyyatçı", "Bərbər-vizajist-manikürçü", "Bərbər", "Dərzi", "Əməliyyatçı-mühasib" və "Kompüter operatoru" peşə ixtisasları üzrə qeyri-formal və informal təhsil formaları vasitəsilə əldə etdiyi bilik və bacarıqların qiymətləndirilməsi həyata keçirilib. İlkin mərhələdə nəzəri bilikləri qiymətləndirilən 105 nəfər vətəndaşın 64-ü məqbul, 41-i isə qeyri-məqbul nəticə göstərib. Növbəti mərhələdə 64 nəfərdən 60-ı praktiki imtahanlara cəlb edilib, onlardan 47-si məqbul, 13-ü isə qeyri-məqbul nəticə göstərib. Qeyd edək ki, digər 4 nəfərin yaxın zamanda praktiki imtahana cəlb edilməsi nəzərdə tutulur.






## Türkiyə Respublikasında heyətin mübadiləsində iştirak

**QFİTT sahəsində beynəlxalq təcrübənin öyrənilməsi və əməkdaşlığın genişləndirilməsi məqsədilə TKTA əməkdaşları 8–12 dekabr 2025-ci il tarixlərində Türkiyə Respublikasının İstanbul şəhərinə səfər edib.**

Səfər çərçivəsində TKTA-nın Kvalifikasiyaların tanınması departamentinin direktoru Elmir Həsənov, Qeyri-formal və informal təhsilin tanınması şöbəsinin əməkdaşları Vüsalə Mütəllibova və Şəbnəm Camalzadə qardaş ölkənin müvafiq qurum və təşkilatları ilə bir sıra görüşlər keçiriblər.

Görüşlər zamanı Türkiyə Respublikasının “Mesleki Yeterlilik Kurumu” tərəfindən səlahiyyət verilmiş “Belgelendirme Kuruluşları Derneyi” ilə qiymətləndirmə və tanınma mexanizmləri, nəzəri və praktiki imtahanların təşkili ilə bağlı məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində “Belgelendirme Kuruluşları Derneyi”nin rəhbəri Cengizhan Kutlu, “Seviye Belgelendirme Uluslararası Mesleki Yeterlilik Teşkilatı”nın baş direktoru Onur Zara və keyfiyyət üzrə menecer Emre Eregizlinin iştirakı ilə işgüzar görüşlər keçirilib. Bununla yanaşı, “Genç Akademik Gelişim Eğitim Hizmetleri ve Kırtasiye Ticaret Limited” Şirkətinin baş direktoru Şeyma Savaş və keyfiyyət üzrə menecer Özlem Demiröz Aslantatar ilə QFİTT proseslərində tətbiq olunan yanaşmalar müzakirə olunub.

Görüşlər zamanı qiymətləndirmə və tanınma prosesləri, nəzəri və praktiki imtahanların təşkili və imtahan nəticələrinin etibarlılığının təmin edilməsi ilə bağlı məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb. Eyni zamanda, səfər zamanı müxtəlif peşə ixtisasları üzrə nəzəri və praktiki imtahanlar yerində izlənilib.



## SEQA-ESG II layihəsinin bağlanış mərasimində və ENQA Baş Assambleyasında iştirak

2025-ci ilin 21 oktyabr tarixində Belçika Krallığının paytaxtı Brüssel şəhərində Avropa Ali Təhsil üzrə Keyfiyyət Təminatı Assosiasiyasının (ENQA) "SEQA-ESG II" layihəsinin bağlanış mərasimi, 22-24 oktyabr tarixində isə Flamand Ali Təhsil Şurası – Keyfiyyət Təminatı (VLUHR QA) və Ali Təhsildə Keyfiyyət Təminatı Agentliyi (AEQES) ilə əməkdaşlıq çərçivəsində ENQA Baş Assambleyası keçirilib. TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədov və Akkreditasiya və lisenziya şöbəsinin müdiri Samir Quliyev tədbirlərdə iştirak etmək məqsədilə qeyd edilən tarixlərdə Brüssel şəhərinə səfər edib.




Baş Assambleyada ENQA-nın rəhbər heyətinin və təşkilata tam hüquqlu (60 ölkə) və müşahidəçi üzv (42) statusunda olan ölkələrin keyfiyyət təminatı qurumlarının nümayəndələri ilə yanaşı Afrika Universitetləri Assosiasiyasının (AAU) baş katibi, Honq Konq Akademik və Peşə Kvalifikasiyası üzrə Akkreditasiya Şurasının (HKCAAVQ) icraçı direktoru, Avropa Ali Təhsil Məkanı (EHEA) Katibliyinin rəhbəri, Avropa Universitetləri Assosiasiyasının (EUA) institusional inkişaf şöbəsinin direktoru, Avropa Tələbələr Birliyinin (ESU) vitse-prezidenti, Ali Təhsildə Avropa Keyfiyyət Təminatı Reyestrinin (EQAR) direktoru və digər şəxslər iştirak edib.




Tədbirdə Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatlar (ESG), eləcə də Bolonya prosesinin təkmilləşdirilməsi, müxtəlif regionlardan olan keyfiyyət təminatı agentlikləri arasında əməkdaşlıq, keyfiyyət təminatı proseslərində süni intellektdən istifadə və maraqlı tərəflərin töhfəsi kimi mühüm mövzular müzakirə edilib. Eyni zamanda, Baş Assambleya çərçivəsində ENQA İdarə Heyətinə prezident, vitse-prezidentlər və üzv seçkiləri keçirilib. Əvvəlki illərdə ENQA İdarə Heyətinə rəhbərlik etmiş şəxslərin panel müzakirələri ilə ENQA-nın 25 illik yubileyi qeyd edilib.

## Keyfiyyət təminatı departamentinin əməkdaşlarının təcrübə mübadiləsi və işgüzar səfərləri

### Türkiyə Respublikasında heyətin mübadiləsində iştirak

2025-ci ilin 22-25 dekabr tarixlərində TKTA-nın akkreditasiya və lisenziya şöbəsinin müdiri Samir Quliyev Türkiyə Respublikasının proqram akkreditasiya qurumları ilə müzakirələr aparmaq, İstanbul Universiteti-Cərrahpaşada keçirilən proqram akkreditasiyasında beynəlxalq müşahidəçi kimi iştirak etmək və sözügedən ATM-də keyfiyyət təminatı mexanizmləri mövzusunda universitetin rəhbərliyi ilə görüşlər keçirmək məqsədilə İstanbul şəhərinə səfər edib.

Ali Təhsildə Keyfiyyət Təminatı Agentliklərinin Mərkəzi və Şərqi Avropa Şəbəkəsinin (CEENQA) tam hüquqlu üzvü olan və idarə heyətində təmsil olunan Pedaqoji üzrə Proqramların Qiymətləndirilməsi və Akkreditasiyası Assosiasiyasında (EPDAD) İdarə Heyətinin sədri və üzvlərinin iştirakı ilə ikitərəfli görüşlər keçirilərək Türkiyə Respublikasında proqram akkreditasiya prosesləri, dərnəyin çalışma mexanizmi, ekspertlərlə və komissiyalarla iş, elektron akkreditasiya, daxili keyfiyyət təminatı sistemlərinə töhfə mexanizmi və birgə fəaliyyətlərin həyata keçirilməsi istiqamətində müvafiq müzakirələr aparılıb. EPDAD tərəfindən formalaşdırılan Akkreditasiya Komissiyası ilə birlikdə beynəlxalq müşahidəçi kimi İstanbul Universiteti-Cərrahpaşanın texnoparkında (Entertech İstanbul Teknokent) universitetin rəhbərliyi ilə görüşlər keçirilərək təhsil ixtisaslarının texnoparkdakı rolu mövzusunda verilən təqdimat müzakirə edilib.



## Keyfiyyət təminatı departamentinin əməkdaşlarının təcrübə mübadiləsi və işgüzar səfərləri

### Türkiyə Respublikasında heyətin mübadiləsində iştirak

EPDAD tərəfindən İstanbul Universiteti-Cərrahpaşada “İbtidai sinif müəllimliyi”, “Məktəbəqədər təhsil”, “İbtidai siniflər üçün riyaziyyat müəllimliyi”, “Psixologiya müəllimliyi” ixtisasları üzrə keçirilən proqram akkreditasiyasında beynəlxalq müşahidəçi kimi iştirak edən Samir Quliyev sözügedən universitetin rektoru, professor Nuri Aydın həmçinin prorektor və keyfiyyət təminatı Komissiyasının rəhbəri professor Erol İncə ilə ATM-in keyfiyyət təminatı sistemi, layihələr və İstanbul Universiteti-Cərrahpaşanın tədqiqat universiteti statusunu qazanma prosesi ilə əlaqəli müzakirələr aparıb.

Həmçinin, digər proqram akkreditasiyası qurumu olan, eyni zamanda, CEENQA-nın tam hüquqlu üzvü olan FEDEK-in (Tətbiqi elmlər, ədəbiyyat, dil, tarix və coğrafiya ixtisasları üzrə akkreditasiya assosiasiyası) İdarə Heyətinin üzvləri ilə görüş keçirilib, FEDEK tərəfindən Türkiyədə tətbiq edilən proqram akkreditasiyası prosesləri haqqında təqdimat dinlənilib və müzakirələr aparılıb.

Səfər çərçivəsində həmçinin proqram akkreditasiyası kontekstində İstanbul Universiteti-Cərrahpaşanın keyfiyyət təminatının institusional mexanizmi və “tədqiqat universiteti” prosesindəki fəaliyyətləri və TKTA ilə proqram akkreditasiya qurumları olan EPDAD və FEDEK arasındakı əməkdaşlıq perspektivləri müzakirə edilib.





# Keyfiyyət təminatı departamentinin əməkdaşlarının təcrübə mübadiləsi və işgüzar səfərləri

## Xorvatiya Respublikasında heyət mübadiləsində iştirak

16-19 dekabr 2025-ci il tarixlərində TKTA-nın Keyfiyyət təminatı departamentinin əməkdaşları Nigar Əsgərova və Bəyim Abdulla Xorvatiya Respublikasının Elm və Ali Təhsil Agentliyində (ASHE) heyət mübadiləsində iştirak edib.

Səfərin əsas məqsədi keyfiyyət təminatı istiqamətində ASHE təcrübəsi ilə yaxından tanış olmaq, eləcə də TKTA təcrübəsini bölüşməkdən ibarətdir.

Səfər zamanı ASHE-nin direktoru prof.Danijela Horvatek Tomic, Agentliyin struktur bölmə rəhbərləri və əməkdaşları ilə görüşlər keçirilib. Agentlik direktoru ASHE-nin missiyası, strateji hədəfləri, təşkilati strukturu, onun institusional inkişafı və beynəlmiləlləşməsi haqqında məlumat verib.

Görüşdə TKTA-nın əməkdaşları Agentliyin fəaliyyəti, mandatı, əsas fəaliyyət istiqamətləri və milli səviyyədə əldə olunan nəticələr barədə təqdimatla çıxış ediblər.

Səfər zamanı (CEENQA) İdarə Heyətinin sədri, eyni zamanda ASHE-nin direktor müavini Vesna Dodikoviç-Jurkoviç ilə də görüş keçirilib.

Görüşdə CEENQA-nın ali təhsildə keyfiyyət təminatının inkişafı üçün təşkilata üzv olan ölkələrin agentlikləri arasında əməkdaşlığın gücləndirilməsinin əhəmiyyəti haqqında fikir mübadiləsi aparılıb.





## Keyfiyyət təminatı departamentinin əməkdaşlarının təcrübə mübadiləsi və işgüzar səfərləri

### Moldovanın keyfiyyət təminatı agentliyi olan ANACEC-də təcrübə mübadiləsi

TKTA-nın Təlim və metodologiya şöbəsinin müdiri Elçin Cəfərov Moldovanın Akkreditasiya və Keyfiyyət Təminatı üzrə Milli Agentliyinin (ANACEC) dəvəti ilə 8-10 dekabr 2025-ci il tarixlərində Kişinyov şəhərində işgüzar səfərdə olub. Səfər TKTA və ANACEC arasında əməkdaşlığın genişləndirilməsi, həmçinin keyfiyyət təminatı sahəsində qabaqcıl təcrübələrin öyrənilməsi və paylaşılması məqsədilə həyata keçirilib.

Səfər çərçivəsində ATM-lərin akkreditasiyası prosedurları, daxili və xarici keyfiyyət təminatı mexanizmləri, tədris prosesinin qiymətləndirilməsi, institusional idarəetmə, ESG standartlarının tətbiqi, rəqəmsal alətlər və tədqiqat fəaliyyətinin keyfiyyətinin ölçülməsi kimi mövzularda geniş müzakirələr aparılıb. Hər iki qurumun mütəxəssisləri həyata keçirilən proseslər, mövcud yanaşmalar və qarşılaşdıqları çağırışlar barədə fikir mübadiləsi apararaq qarşılıqlı öyrənmə imkanlarını dəyərləndiriblər.

Görüşlərin sonunda TKTA və ANACEC nümayəndələri tərəfindən bu cür təcrübə mübadiləsi səfərlərinin həm informasiya mübadiləsinə, həm də beynəlxalq əməkdaşlığın dərinləşdirilməsinə mühüm töhfə verdiyi vurğulanıb və gələcəkdə də qarşılıqlı səfərlərin davam etdirilməsinin hər iki agentlik üçün faydalı olacağı ifadə olunub.

Təhsil sahəsində beynəlxalq tərəfdaşlıq imkanlarının genişləndirilməsi TKTA-nın strateji fəaliyyət istiqamətlərindən biri olmaqla, keyfiyyət təminatı sisteminin təkmilləşdirilməsi və qabaqcıl təcrübələrin ölkəmizdə tətbiqi baxımından mühüm əhəmiyyət kəsb edir.





## Milli Aviasiya Akademiyasında təlim

**TKTA tərəfindən ATM-lərə metodoloji dəstəyin göstərilməsi məqsədilə Milli Aviasiya Akademiyasının əməkdaşları üçün "Daxili keyfiyyət təminatı sisteminin qurulması" mövzusunda təlim təşkil olunub.**

Təlim zamanı ali təhsildə daxili keyfiyyət təminatı sisteminin rolu, məqsədləri və effektiv tətbiq mexanizmləri, keyfiyyətin təminatı üzrə alətlər, eləcə də keyfiyyət dövriyyəsinin mərhələləri müzakirə olunub. İştirakçılar daxili keyfiyyət təminatı sisteminin planlaşdırılması, həyata keçirilməsi, qiymətləndirilməsi və təkmilləşdirilməsi proseslərinə dair praktiki nümunələrlə tanış olublar.

Məlumat üçün bildiririk ki, TKTA-nın Nizamnaməsinə əsasən, təhsil müəssisələrində daxili və xarici keyfiyyət təminatı sahəsində metodoloji dəstəyin göstərilməsi Agentliyin əsas fəaliyyət istiqamətlərindən birini təşkil edir.







## Ali Təhsildə Keyfiyyət üzrə Beynəlxalq Konfrans (IQC 2025)

27 noyabr 2025-ci il tarixində Azərbaycan Dövlət Pedaqoji Universitetində “Ali Təhsildə Keyfiyyət üzrə Beynəlxalq Konfrans (IQC 2025)” keçirilib.

Qeyd edək ki, ADPU-nun ev sahibliyi və TKTA, Türkiyənin Ali Təhsildə Keyfiyyət Təminatı Şurasının (YÖKAK) və Çankaya Universitetinin təşkilati dəstəyilə keçirilən konfransa dünyanın müxtəlif ölkələrindən 200-dən çox ali təhsildə keyfiyyət təminatı sahəsində qabaqcıl təcrübəyə malik alim, tədqiqatçı və ekspertlər dəvət olunub.

Açılış mərasimində ADPU-nun rektoru Cəfər Cəfərov, Çankaya Universitetinin rektoru Hadi Hakan Maraş, Sakarya Universitetinin rektoru Hamza Al, YÖKAK rəhbəri Ümit Kocabıçak və TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədov çıxış edərək konfransın regional və beynəlxalq əhəmiyyətini vurğulayıblar.

Plenar sessiyada TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədov “Yerli ATM-lərdə institusional və proqram akkreditasiyası sahəsində son tendensiyalar: keyfiyyət təminatı mexanizmləri kontekstində perspektivlərin, mövcud çağırışların və gözləntilərin təhlili” mövzusunda məruzə ilə çıxış edib. O, çıxışında ali təhsil müəssisələrində institusional və proqram akkreditasiyası sahəsində son illər ərzində ölkədə həyata keçirilmiş fəaliyyətlərlə bağlı məlumat verib.

Çıxışının yekununda İdarə Heyətinin sədri IQC 2025 konfransının ali təhsildə keyfiyyət mədəniyyətinin gücləndirilməsinə, beynəlxalq təcrübə mübadiləsinin genişlənməsinə və region üzrə əməkdaşlığın inkişafına mühüm töhfə verən platforma kimi qiymətləndirərək konfransın işinə uğurlar arzulayıb. Eyni zamanda, Tural Əhmədov media nümayəndələrinin suallarını cavablandırıb. Konfrans növbəti məruzələrin dinlənilməsi ilə öz işini davam etdirib.

Sözügedən konfransın keçirilməsində məqsəd ali təhsildə keyfiyyət təminatı, akkreditasiya, tədris və öyrənmə prosesləri, tələbə yönümlü təhsil, rəqəmsal transformasiya və institusional keyfiyyət idarəçiliyi kimi sahələrdə çalışan tədqiqatçıları, pedaqoqları və qərarvericiləri bir araya gətirərək nəzəri bilik, tədqiqat nəticələri və təcrübələrin paylaşılmasına şərait yaratmaqdır.

Qeyd edək ki, IQC Konfransı indiyədək Berlin, Paris, İstanbul, Vyana, Roma, Barselona və Praqa kimi bir sıra şəhərlərdə təşkil olunub.

www.youtube.com/watch?v=24l10-Y2b5M










# Akkreditasiya qiymətləndirilməsi üzrə ekspert hazırlığı




TKTA-nın Təlim və metodologiya şöbəsi tərəfindən təhsil müəssisələrinin və təhsil proqramlarının akkreditasiya qiymətləndirilməsində iştirak edəcək ekspertlərin hazırlanması prosesi çərçivəsində ekspert namizədləri üçün növbəti simulyasiya görüşləri təşkil olunub.

Görüşlərin açılışında çıxış edən TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədov akkreditasiya prosesinin təhsil müəssisələrində keyfiyyətin yüksəldilməsinə xidmət edən mühüm alət olduğunu vurğulayıb. O, bu prosesdə akkreditasiya komissiyası üzvlərinin peşəkar yanaşmalarının vacibliyini qeyd edərək, simulyasiya görüşlərinin ekspertlərin praktik bilik və bacarıqlarının formalaşmasında mühüm rol oynadığını bildirib. Simulyasiya mərhələsində 4 fərqli şərti komissiya daxilində ümumilikdə 28 ekspert namizədi iştirak edib.

Namizədlər öncəki 2 təlim modulu üzrə əldə etdikləri nəzəri biliklərdən istifadə edərək, verilmiş tapşırıq və təlimatlar əsasında şərti ali təhsil müəssisəsinin akkreditasiya prosesinin simulyasiyası və müxtəlif rollarda çıxış edərək özünütəhlil hesabatının təhlilini həyata keçirib, həmçinin müsahibə mərhələsini canlandırıblar.



## Akkreditasiya qaydalarındakı dəyişikliklə bağlı “Azərbaycan müəllimi” qəzetinə açıqlama




**“Daha öncə akkreditasiya meyarlarının 7 istiqamətinin disproporsional çəkisi nəzərə çarpırdı”. Bu barədə “Azərbaycan müəllimi”nə açıqlamasında TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədov bildirib.**

O qeyd edib ki, təlim və tədris istiqaməti 39.5% təşkil etdiyi halda, beynəlmiləlləşmə (8.9%), strateji inkişaf (7%), keyfiyyət təminatı (7%) və infrastruktur (5.9%) istiqamətlərinin hər birinin ağırlılıq dərəcəsi ümumi çəkinin yalnız bir hissəsini təşkil edirdi və bir istiqamət üzrə uğursuzluq təkrar akkreditasiya qərarı ilə nəticələnirdi:

“Bununla yanaşı, son illər aparılan akkreditasiya fəaliyyəti göstərdi ki, təkrar akkreditasiya zərurəti yarandığı təqdirdə təhsil müəssisəsinə verilən 1 illik müddət Akkreditasiya komissiyaları tərəfindən verilən çoxsaylı göstəriş və tövsiyələrin tam şəkildə icrası üçün yetərli olmur. Bu baxımdan yeni dəyişikliyə əsasən, təkrar akkreditasiya qərarı verilən ATM-lər 2 il ərzində yekun hesabatlardan irəli gələn göstəriş və tövsiyələrin əsaslı şəkildə icrasını həyata keçirmək imkanını əldə edir”.

**“Yeni dəyişikliklərlə akkreditasiya nəticəsində tətbiqi nəzərdə tutulan sanksiya beynəlxalq təcrübəyə uyğunlaşdırılan və davamlı təkmilləşmə modelini əsas götürən yanaşmaya çevrilir”.**

Bunu “Azərbaycan müəllimi”nə açılamasında TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədov bildirib.

O qeyd edib ki, akkreditasiya qaydaları ilə yanaşı, tətbiq olunan akkreditasiya meyarlarında da dəyişikliyi özündə əks etdirən layihə hazırda müzakirə olunur:

**“Təklif olunan akkreditasiya meyarları prosesi deyil, fəaliyyətin nəticəsini dəyərləndirəcək və təhsil müəssisələrində keyfiyyətin artırılmasına xidmət edəcək”.**

Tural Əhmədov əlavə edib ki, akkreditasiya prosesinin nəticələri bir tərəfdən təhsil müəssisələrinin mövcud vəziyyətini həm müəssisənin özünə, həm də maraqlı tərəflərə təsvir və təhlil edir, digər tərəfdən isə gələcək fəaliyyət istiqamətlərinin keyfiyyət əsaslı formalaşdırılmasına kömək göstərir:

“Bu şəkildə formalaşdırılan yanaşma ilə akkreditasiya bütün maraqlı tərəflərlə birlikdə təhsil müəssisələri tərəfindən yaradılan, güvənin təminatını təsdiq edən proses olaraq qəbul ediləcək və ali təhsilin hərtərəfli inkişafına mühüm təsir göstərəcək”.

## Media nümayəndələri üçün 2025-ci ilin yekunlarına dair hesabat görüşü



26 dekabr 2025-ci il tarixində TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədovun media nümayəndələri üçün ilin yekunlarına dair brifinqi keçirilib.
Brifinqdə İdarə Heyətinin sədri Agentlik tərəfindən il ərzində görülmüş işlər, əldə olunan nəticələr barədə informasiyaları mətbuat nümayəndələrinin diqqətinə çatdırıb.
Tural Əhmədov TKTA-nın fəaliyyət istiqamətləri üzrə - xarici kvalifikasiyaların tanınması, akkreditasiya və lisenziyalaşdırma, qeyri-formal və informal təhsilin tanınması, beynəlmiləlləşmə, təlim və metodoloji dəstək xidməti, informasiya təminatı üzrə müraciətlər, qanunvericilik üzrə Agentliyin təşəbbüsü kimi məsələlərlə bağlı ictimaiyyəti ətraflı məlumatlandırıb.
Görüşdə, həmçinin TKTA-nın fəaliyyətdə olan yeni internet səhifəsi də media nümayəndələrinə təqdim olunub.
Məlumat üçün bildiririk ki, sözügedən internet səhifəsində bir sıra yeniliklər mövcuddur. Belə ki, burada süni intellekt texnologiyalarından istifadə olunmaqla vətəndaşların operativ məlumatlandırılması üçün "Chat-box" bölməsi, həmçinin fiziki olaraq vətəndaş qəbulunda iştirak etmək imkanı olmayan şəxslər üçün videozəng bölməsi yaradılıb. Bununla da vətəndaşlarımız Agentliyə gəlmədən elektron qaydada vətəndaş qəbulunda iştirak etmək hüququ əldə ediblər.
Sonda media nümayəndələrini maraqlandıran çoxsaylı suallar cavablandırılıb.

www.youtube.com/watch?v=yYmfZ6-Kn_U



## Media ilə iş və vətəndaş məmnunluğu

### Media ilə iş:

TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədov 2025-ci ildə Agentlik tərəfindən həyata keçirilən işlərlə bağlı ARB24 telekanalına müsahibə verib.

https://www.youtube.com/watch?v=vg7cgT1PXY0







TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədov Təhsil TV-də ilk dəfə efirə gedən "Təhsildəyik" verilişinin qonağı olub.

www.youtube.com/watch?v=k1iz-cdOwD0

Xəzər Radiosunun qonağı olan TKTA-nın şöbə müdiri Rövşən Nəzərov Agentliyin əsas fəaliyyət istiqamətləri haqqında məlumat verib.

www.youtube.com/watch?v=PcQEWG6fOiI







TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədov NTV-nin "Təhsil və Zaman" proqramına müsahibə verib.

www.youtube.com/watch?v=whZXxcG3lu8

## Media ilə iş və vətəndaş məmnunluğu

### Media ilə iş:




TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədovun xaricdə əldə olunan kvalifikasiyaların tanınması ilə bağlı Xəzər TV-də yayımlanan müsahibəsi.

www.youtube.com/watch?v=Kx_ltgAmzmc




TKTA-nın şöbə müdiri Elnur Xəlilov xaricdə təhsillə bağlı ATV telekanalına müsahibə verib.

www.youtube.com/watch?v=5IAiSFeu4Cg

AzTV telekanalında xaricdə əldə edilmiş kvalifikasiyaların ölkəmizdə tanınması ilə bağlı reportaj yayımlanıb.

www.youtube.com/watch?v=Bn72wBRI3S8







TKTA-nın İdarə Heyətinin sədri ARB24 telekanalına "Təhsil müəssisələrinin akkreditasiya Qaydaları"nda dəyişikliklər barədə müsahibə verib.

www.youtube.com/watch?v=YymWuvYtBWo&t=54s

# Media ilə iş və vətəndaş məmnunluğu

## Media ilə iş:




TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədov ATV telekanalında "Xəbərin olsun" verilişinin qonağı olub.

www.youtube.com/watch?v=D4JhAMrDXHA&t=248s

TKTA-nın şöbə müdiri Rövşən Nəzərovun xaricdə əldə edilmiş kvalifikasiyaların tanınması ilə bağlı telekanallarda müsahibələri yayımlanıb.

www.facebook.com/watch/?v=2361755660904903
www.youtube.com/watch?v=c-alxd0zdY8
www.youtube.com/watch?v=Bn72wBRI3S8&t=11s
www.youtube.com/watch?v=Br4yoSjUzRc
www.youtube.com/watch?v=dVor_OcqETI&t=2s




## Vətəndaş rəyləri:






## Vətəndaş qəbulu:

2025-ci ilin IV rübü ərzində vətəndaş müraciətlərinin cavablandırılması məqsədilə aylıq əsasda sosial şəbəkə hesablarında əvvəlcədən elan edilməklə, Agentliyin rəhbərliyi, eyni zamanda struktur bölmə rəhbərləri tərəfindən vətəndaşların qəbulu təşkil edilib.
Qəbul zamanı vətəndaşlar əsasən, xarici dövlətlərin ATM-lərindən əldə etdikləri kvalifikasiyaların tanınması ilə bağlı müraciət ediblər.
Qəbula yazılmış vətəndaşlar İdarə Heyətinin sədri və müvafiq struktur bölmə rəhbərləri tərəfindən dinlənilib, onların müraciətlərinin araşdırılması və qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində müvafiq tapşırıqlar verilib.
Qeyd edək ki, oktyabr-dekabr ayları üzrə qəbul cədvəlinə uyğun olaraq, Agentliyin İdarə Heyətinin sədri eyni zamanda, struktur bölmə rəhbərləri tərəfindən ümumilikdə **179** vətəndaşın qəbulu həyata keçirilib.
Məlumat üçün bildiririk ki, vətəndaşlar qəbula yazılmaq üçün 146-8 Çağrı Mərkəzinə zəng edərək qeydiyyatdan keçə bilərlər.












## Vətəndaş məmnuniyyəti:

Vətəndaşlar tərəfindən birbaşa olaraq, həmçinin ETN vasitəsilə Agentliyə yönləndirilən müraciətlər və sosial şəbəkələrdən daxil olan sorğular araşdırılaraq müvafiq qaydada cavablandırılıb.










1 oktyabr - 31 dekabr 2025-ci il tarixlərində Agentliyə ünvanlanan **12098** vətəndaş müraciətinə baxılıb.

## İctimaiyyətin nəzərinə

2025-ci il üzrə QFİTT istiqamətində sənəd əldə edən vətəndaş sayına münasibətdə TKTA-nın öhdələyi 2024-cü ilə (189 nəfər) nisbətdə 10 faizlik artımla 208 nəfər təşkil edib.
2025-ci il ərzində QFİTT istiqamətində TKTA-ya ümumilikdə 378 müraciət daxil olub. Müraciət edən şəxslərin sənədlərinə ilkin baxış keçirildikdən sonra 337 nəfər qiymətləndirmə mərhələsinə cəlb edilib. Qiymətləndirmənin ilkin mərhələsi olan nəzəri imtahanlarda iştirak edən 337 nəfərdən 259-u məqbul, 78-i isə qeyri-məqbul nəticə göstərib. Növbəti mərhələdə 259 nəfərdən 243-ü praktiki imtahanlara cəlb edilib, onlardan 217-si məqbul, 26-sı isə qeyri-məqbul nəticə göstərib. Yekunda 217 nəfər vətəndaş peşə sənədi əldə edib, onlardan 16-sı isə praktiki imtahanı gözləmə mərhələsindədir.
Bununla da, 2025-ci il üzrə Tədbirlər Planında göstərilən hədəf 100 faizlik nəticə ilə yekunlaşıb. www.tkta.edu.az/az/media/news/40




**Ali təhsilin əsas (baza ali) tibb təhsili səviyyəsindəki ixtisaslar (proqramlar) üzrə akademik şəhadətnamə almış müraciətçilərin diqqətinə!!!**

Bildiririk ki, sözügedən Qaydaların qəbulundan sonra ali təhsilin əsas (baza ali) tibb təhsili səviyyəsindəki ixtisaslar üzrə xarici kvalifikasiyaların tanınması məqsədilə TKTA-ya müraciət etmiş ərizəçilərlə bağlı aparılmış təhlil nəticəsində müəyyən edilmişdir ki, həmin ərizəçilərin bir qismi Səhiyyə Nazirliyi tərəfindən təşkil olunan müvafiq peşə ixtisası üzrə imtahanlarda uğurlu nəticə göstərmədiyi üçün yalnız akademik şəhadətnamə əldə edib.

Xüsusilə qeyd edirik ki, akademik şəhadətnamə yalnız Azərbaycan Respublikası ərazisində təhsilin növbəti səviyyəsinə qəbul olunmaq hüququ verir və bu şəhadətnaməni almış şəxslərin hər hansı peşə fəaliyyəti ilə məşğul olmaları mövcud qanunvericiliyin tələblərinə ziddir.
Əlavə olaraq qeyd edirik ki , ali təhsilin əsas (baza ali) tibb təhsili səviyyəsindəki ixtisaslar (tibb və stomatologiya) üzrə akademik şəhadətnamə almış şəxslər peşə fəaliyyəti ilə qanuni əsaslarla məşğul ola bilmək üçün yenidən TKTA-ya müraciət etməli və Səhiyyə Nazirliyi tərəfindən təşkil olunan müvafiq imtahandan müvəffəqiyyətlə keçərək kvalifikasiyalarının tam tanınmasını təmin etməlidirlər.
www.tkta.edu.az/az/media/news/1331

## Xüsusi müsahibə: ATM-lərdə institusional akkreditasiyanın əhəmiyyəti



**SEVDAGÜL ƏLİYEVA**
Azərbaycan Dillər Universitetinin Qərb ölkələri üzrə regionşünaslıq kafedrasının müdiri,
Tarix üzrə fəlsəfə doktoru, dosent

**Sizcə, hansı amillər ATM-in akkreditasiya prosesində uğurlu olmasına təsir göstərir?**

ATM-lərin akkreditasiya prosesində uğuru bir sıra əsas amillərdən asılıdır. Əvvəlcə, tədrisin keyfiyyəti və proqramların müasir tələblərə uyğun hazırlanması vacibdir. Proqramların formalaşdırılmasında daxili və xarici maraqlı tərəflərin fəal iştirakı təmin edilməli, proqramların keyfiyyət göstəricilərini təkmilləşdirmək məqsədilə mütəmadi monitorinqlər təşkil olunmalıdır. Professor–müəllim heyətinin peşəkarlığı, müasir pedaqoji metodlardan istifadəsi və davamlı inkişaf, eləcə də məzunların məşğulluq göstəriciləri akkreditasiya nəticəsinə təsir göstərir.

İdarəetmə sistemi demokratik, şəffaf və ədalətli olmalı, daxili keyfiyyət təminatı mexanizmləri funksional olmalı və fəaliyyət strategiyaya uyğun icra edilməlidir. Tələbələrin idarə etmə, ictimai və akademik fəaliyyətlərdə fəal iştirakı da keyfiyyət göstəriciləri sırasındadır.

Elmi-tədqiqat fəaliyyətinin səmərəliliyi, beynəlxalq əməkdaşlıq imkanları, yeni texnologiyaların və süni intellektin səmərəli tətbiqi məsələləri də müəssisənin potensialını gücləndirir. Maddi-texniki baza, laboratoriyalar, kitabxana və İKT təminatı isə təhsilin keyfiyyət göstəricilərinin davamlılığını təmin edir.

Nəticədə, bu amillərin hər biri akkreditasiya qiymətləndirilməsində uğurlu nəticə üçün əsas rol oynayır.

**Sizin fikrinizcə, akkreditasiya prosesi ATM-in inkişafına hansı istiqamətlərdə davamlı və dayanıqlı töhfələr verir?**

Akkreditasiya prosesi ATM-in inkişafına davamlı və dayanıqlı təsir göstərən əsas istiqamətləri formalaşdırır. Bu proses, xüsusilə müxtəlif fakültələr, mərkəzlər və şöbələr arasında qarşılıqlı əlaqələrin güclənməsinə, fəaliyyətlərin daha koordinasiyalı icrasına və hesabatlılığın artmasına şərait yaradır. Akkreditasiyanın tələb etdiyi keyfiyyət yanaşması daxili proseslərin mütəmadi təkmilləşdirilməsini, idarəetmədə şəffaflıq və məsuliyyətin yüksəldilməsini təşviq edir. Nəticədə müəssisə uzunmüddətli perspektivdə daha səmərəli fəaliyyət göstərir, strateji hədəflərinə uyğun inkişaf edir və tədrisin keyfiyyətini davamlı olaraq yüksəldə bilir.

**Necə düşünürsünüz, akkreditasiya prosesinin ATM-lərdə keyfiyyət mədəniyyətinin formalaşması və inkişafına verdiyi əsas töhfələr hansılardır?**

Akkreditasiya prosesi ATM-lərdə keyfiyyət mədəniyyətinin formalaşmasına mühüm töhfə verir. Keyfiyyət mədəniyyəti ümumi dəyərlər qazanır və təhsilalan, akademik və inzibati heyətin fəaliyyətində məsuliyyət və peşəkarlığı gücləndirir. Akkreditasiya, həmçinin hesabatlılıq prinsiplərini möhkəmləndirir, struktur bölmələrin fəaliyyətini şəffaf və nəticəyönlü şəkildə təşkil etməyə şərait yaradır. Bununla yanaşı, fakültələr və şöbələr arasında əməkdaşlığı artıraraq birgə işin daha səmərəli həyata keçirilməsini təmin edir. Beləliklə, keyfiyyət mədəniyyəti təhsil müəssisəsində ortaq dəyərlərə, şəffaflığa və əməkdaşlığa söykənən

## Xüsusi müsahibə: ATM-lərdə institusional akkreditasiyanın əhəmiyyəti

dayanıqlı inkişafı təşviq edir.

**Qloballaşan dünyamızda ATM-lərdə həyata keçirilən akkreditasiya prosesi beynəlxalq çağrışlara necə cavab verir?**

Qloballaşma ilk növbədə ATM-lər arasında həm əlaqələrin qurulmasını, həm də rəqabətliliyin artırılmasını təşviq edir ki, bu da təhsil müəssisələrinin qlobal təhsil mühitinə inteqrasiyasını sürətləndirir. Bu proses kredit sisteminin tətbiqi, tələbə və müəllim mübadilə proqramlarının təşkili, beynəlxalq konfrans, seminar və simpoziumlarda iştirakın təmin olunması və müəllimlərin beynəlxalq təlimlərdə iştirakının dəstəklənməsi kimi istiqamətləri əhatə edir. Nəticədə, akkreditasiya təhsilin sərhədlərini genişləndirir və ATM-lərin beynəlxalq səviyyədə tanınmasına və rəqabət qabiliyyətinin yüksəlməsinə töhfə verir.

**ATM-lərdə akkreditasiya prosesinə həssaslığı artırmaq üçün nə kimi tədbirlər görülməlidir və maraqlı tərəflərlə iş hansı istiqamətdə qurulmalıdır?**

Azərbaycan cəmiyyətində akkreditasiya prosesinə duyarlılığı artırmaq üçün ölkədə bu prosesi kurasiya edən TKTA-nın fəaliyyət istiqamətləri və akkreditasiya qiymətləndirmələri zamanı tətbiq edilən meyarlar haqqında məlumatların həm ali məktəblərə, həm də ictimaiyyətə daha geniş şəkildə çatdırılması vacibdir. Maraqlı tərəflərin təlimlərə və maarifləndirici proqramlara cəlb edilməsi, eləcə də ali məktəblərdə dövri akkreditasiya prosesindən əvvəl simulyasiyaların keçirilməsi prosesi daha şəffaf və effektiv edər. Belə yanaşma həm cəmiyyətin, həm də təhsil müəssisələrinin akkreditasiya prosesində daha aktiv iştirakını motivasiya edər.

**Sizin fikrinizcə, akkreditasiya qiymətləndirilməsi nəticəsində ATM-in gələcək inkişafı üçün prioritet sahələr hansılar ola bilər?**

Təcrübə göstərir ki, akkreditasiya qiymətləndirilməsindən sonra ATM müəyyən edilən çatışmazlıqlar və ya zəif tərəflərini aradan qaldırmaq üçün fəaliyyətlərini gücləndirir. Düşünürəm ki, hər ATM üçün bu fəaliyyət istiqaməti Akkreditasiya Komissiyasının gəldiyi nəticələrdən asılıdır.

Hazırkı dövrdə TKTA tərəfindən təhsilin keyfiyyətinin və keyfiyyət mədəniyyətinin, həmçinin beynəlxalq əməkdaşlıqların artırılması, elmi-tədqiqat potensialının gücləndirilməsi, məzunların məşğulluq səviyyəsinə daha çox diqqət yetirilməsini nəzərə alaraq, prioritetlərin bu istiqamətdə dəyişəcəyini ehtimal etmək olar.

**Akkreditasiya prosesindən sonra nəzarət mexanizmi ATM üçün nə dərəcədə əhəmiyyətlidir?**

Akkreditasiya prosesindən sonrakı nəzarət mexanizmi mənim fikrimcə, təhsil müəssisəsində davamlı inkişafın təmin olunması üçün həyati əhəmiyyət kəsb edir. Güclü daxili keyfiyyət təminatı sistemi yalnız hesabatlılığı artırmır, həm də müəllimlərin və tələbələrin fəaliyyətinə istiqamət verir, islahatların davamlı olmasını tələb edir. Akkreditasiya Komissiyası tərəfindən təqdim olunan tövsiyələrin icrasına effektiv nəzarət mexanizmi mövcud olmadıqda isə akkreditasiya nəticələrinin təsir gücü azalır. Bu baxımdan, nəzarət mexanizmi akkreditasiya prosesinin nəticələrini möhkəmləndirən və onların dayanıqlığını təmin edən əsas amil kimi qiymətləndirilir.

# “İbtidai sinif müəllimliyi” (İSM) ixtisası üzrə Təhsil Proqramının təhlilinə dair



**LALƏ ABASOVA**
Azərbaycan Universiteti,
Keyfiyyət təminatı şöbəsinin müdiri

Son illərdə ölkədə aparılan təhsil islahatları ali təhsilin yalnız struktur və idarəetmə baxımından deyil, eyni zamanda məzmun, nəticə və keyfiyyət göstəriciləri üzrə yenidən qiymətləndirilməsini zəruri etmişdir. Bu kontekstdə ölkədə həyata keçirilən islahatlar nəticəyönümlü fəaliyyət modelinə keçidi, idarəetmədə şəffaflığın artırılmasını və keyfiyyət təminatı mexanizmlərinin sistemli tətbiqini prioritet istiqamət kimi ön plana çıxarır.

Ümumi təhsil sisteminin fundamental mərhələsi hesab olunan ibtidai təhsil pilləsi üzrə keyfiyyətli müəllim hazırlığı uzunmüddətli təhsil nəticələrinin formalaşmasında həlledici rol oynayır. “İSM” ixtisası üzrə Təhsil Proqramının məzmununda, strukturunda və təlim nəticələrində mövcud olan uyğunluq və boşluqlar sonrakı təhsil pillələrində müşahidə edilən akademik nəticələrə birbaşa təsir göstərir. Məhz bu səbəbdən, sözügedən proqramın məzmun və keyfiyyət göstəricilərinin analitik təhlili təhsil siyasətinin səmərəliliyinin qiymətləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

Bu baxımdan, 2024-cü ildən etibarən TKTA tərəfindən “İSM” ixtisası üzrə Təhsil Proqramı ilə bağlı ölkədə tədris aparan 14 ATM-də akkreditasiya prosesinə başlanması təsadüfi xarakter daşımır. Bu addım bir tərəfdən ixtisasın strateji əhəmiyyətindən irəli gələn keyfiyyət risklərinin idarə olunmasına, digər tərəfdən isə proqramların təlim nəticələri, resurs təminatı və idarəetmə mexanizmləri üzrə obyektiv və müqayisəli qiymətləndirilməsinə yönəlmiş sistemli yanaşmanın təzahürü kimi qiymətləndirilə bilər.

“050107-İSM” ixtisası üzrə 2020-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyi (bundan sonra TN) tərəfindən təsdiq olunaraq qüvvəyə minib.

Məlumdur ki, 2020-ci ildə TN tərəfindən təsdiq olunmuş xüsusilə humanitar və sosialyönümlü ixtisaslar üzrə bir çox təhsil proqramlarında iki əlavə: **Əlavə 1** “Təhsil Proqramı və fənlərin təlim nəticələri” və **Əlavə 2** “Fənlərin və Təhsil Proqramının təlim nəticələrinin matrisi”ni əks etdirən qoşma sənədlər mövcuddur. Bu əlavələr bir qayda olaraq ETN tərəfindən koordinasiya olunan sahə üzrə məsul ATM-lər tərəfindən hazırlanır. Lakin 2024-cü təqvim ilində keçirilən proqram akkreditasiyası zamanı məlum olmuşdur ki, “050107-İSM” ixtisası üçün bu iki əlavə nəzərdə tutulmamışdır. Bu səbəbdən sözügedən ixtisasın tədrisini təşkil edən hər ATM Təhsil Proqramının 6-ci bəndinə əsasən ixtisas üzrə nəzərdə tutulan ümumi və peşə kompetensiyaların formalaşmasını təmin etmək üçün müvafiq Proqram Təlim Nəticələri (PTN) və Fənn üzrə Təlim Nəticələri (FTN) özü hazırlamalıdır.

“050107-İSM” ixtisası pedaqoji ixtisaslar qrupuna aid olduğu üçün tədris dilinin önəmi xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan, ATM-lər tərəfindən hazırlanan PTN və FTN-lərdə təhsilalanların tədris dilini akademik səviyyədə bilməsi mütləq prerekvizit kimi nəzərə alınmalıdır. Bu şərt təhsil proqramı üzrə tədris xarici (qeyri-Azərbaycan) dildə aparıldığı təqdirdə ATM-lər tərəfindən istisnasız təmin edilməli və icra olunmalıdır.

Məlumdur ki, adıkeçən ixtisas üzrə Təhsil Proqramı baza dövlət standartı olaraq həm Azərbaycan, həm də qeyri-Azərbaycan dilli ibtidai siniflər üçün tələb olunan kvalifikasiyalı mütəxəssisin – müəllimin hazırlığını nəzərdə tutur. Bu baxımdan “050107-İSM” ixtisası üzrə

## “İSM” ixtisası üzrə Təhsil Proqramının təhlilinə dair

ümumi və peşə kompetensiyalarda qeyd olunan ana dili anlayışı tədris dili ilə eynilik təşkil etməlidir. ATM tərəfindən hazırlanan müvafiq PTN və FTN-lərdə tədris dilinin akademik səviyyəsi mütləq təmin edilməlidir ki, tələbələr 1-ci ildən başlayaraq qeyri-Azərbaycan tədris dili üzrə həm təhsil almaq, həm də məzun olduqdan sonra tədris dilində dərs demək kompetensiyasına sahib olsunlar.

Burada qeyd edilməlidir ki, adıkeçən ixtisas üzrə peşə kompetensiyaları sırasında AzMKÇ-nin bakalavriat səviyyəsi üçün tələb etdiyi müstəqillik və məsuliyyət deskriptorlarını əks etdirən göstəricilər çox zəif, demək olar ki, yox dərəcəsində təqdim olunub.

**Təhsil Proqramının Strukturu:**

Təhsil Proqramının strukturu (3-cü bölmə) kompetensiyaların formalaşmasını təmin edəcək məcburi fənləri əhatə edir. Bu fənlər bir qayda olaraq hər birinə qoyulan minimum tələbləri, o cümlədən fənnin məzmunu, fənn üçün tələb olunan baza biliklərin çərçivəsini və metodiki yanaşmaları əks etdirməlidir. Təhsil Proqramında təqdim olunan ixtisas fənlərinin məzmunu milli kurrikulumun konseptinə, tədris metodologiyasına uyğun olaraq konkret baza bilik və bacarıqları əhatə etməlidir. Hazırki “050107-İSM” ixtisası üzrə Təhsil Proqramının strukturu təhlil edilərək müəyyən olunmuşdur ki, sözügedən Təhsil Proqramının bir çox ixtisas fənlərinin təsvirində bu minimum tələblər təmin olunmayıb: fənn üzrə məzmun səthi və natamam, ümumi ifadələr, bəzən mücərrəd fikirlər toplusu kimi təqdim edilib. Misal üçün: ən əsas fənlərdən biri olan 16 kreditli və 3 semestr ərzində tədris edilən İbtidai siniflərdə Azərbaycan dili və onun tədrisi metodikası fənninin məzmununa qoyulan tələb çox qısa və natamamdır. Belə ki, ibtidai sinifdə 4 il ərzində tədris olunacaq ana dili fənninin tədrisinə dair bilik və bacarıqlar Təhsil Proqramında belə ifadə olunur: “Bu fənn çərçivəsində düzgün oxu və yazı qaydaları öyrənilir, təlim-tərbiyə prosesində tətbiq edilir, dil qaydalarının mənimsədilməsində səmərəli metod və vasitələrin seçilməsi, yazılı rəy və təqdimat hazırlanması, müzakirə və diskussiyalar edilməsi öyrədilir”. İlk baxışda fikrin natamam olması gözə çarpır və sual doğurur: fənnin məqsədi və hədəfləri nədən ibarətdir? Ya da “Yazılı rəy və təqdimat hazırlanması, müzakirə və diskussiyalar edilməsinin öyrədilməsinin” məqsədi nədir və hansı auditoriyaya yönəlib: tələbənin özünə, yoxsa ibtidai sinif şagirdinin yumşaq bacarıqlarının formalaşmasına?

Digər əsas fənnin təsviri daha qısa və qeyri-müəyyəndir: 16 kreditli 3 semestr tədris olunan “İbtidai sinifdə riyaziyyat və onun tədrisi metodikası”nın məzmunu 1 cümlədən ibarətdir: “Bu fənn ibtidai siniflərdə riyaziyyat kursunun elmi əsaslarına yiyələnməni təmin edir, məzmun komponentləri, onlar arasındakı əlaqələri mənimsəyərək təhsil prosesində tətbiqinə şərait yaradır”. Bunu şərh etmək üçün bir çox sualları aydınlaşdırmaq lazımdır. Misal üçün: “İbtidai siniflərdə riyaziyyat kursunun elmi əsaslarına yiyələnməsi” ifadəsinin məğzi, fikrimizcə, müəmmalı səslənir, fənn çərçivəsində məntiqi uzlaşmanı və əlaqələndirməni təmin edən redaktəni tələb edir. Digər mücərrəd ifadə “məzmun komponentləri”dir ki, naməlum riyaziyyat kursunun elmi əsasları ilə əlaqələndirilməlidir. Eyni zamanda, cümlədə işlədilən fellər belə – “təmin edir” və “şərait yaradır” - fənnin mümkün funksionallığını əks etdirmir.

Digər bir nümunə kimi “İbtidai siniflərdə informatika və onun tədrisi metodikası” fənninin məzmununa dövlət standartı olan təhsil proqramı tərəfindən qoyulan tələb və gözləntilər öz natamamlığına görə xüsusi seçilir və fənnin adı ilə təqdim edilən məzmun arasında əlaqənin zəif olmasını göstərir və şərhə yer buraxmır: “Bu fənnin tədrisində tələbələr informatika fənninin elmi əsaslarına yiyələnir, məzmun komponentlərini, onlar arasındakı əlaqələri mənimsəyir və təhsil prosesində tətbiq edir”.

Ümumiləşdirərək təəssüflə bildirmək olar ki, sözügedən Təhsil Proqramında qeyd olunan məcburi fənnlərin bir neçəsi istisna olmaqla, əksəriyyətinin məzmununda bir çox oxşar uyğunsuzluq, səhv və qüsurlar mövcuddur. Bu sırada, xüsusi olaraq, məntiq, məzmun, metodoloji prinsipin qarışıq və müəmmalı

## "İSM" ixtisası üzrə Təhsil Proqramının təhlilinə dair

olduğu fənn kimi Təhsil fəlsəfəsi fənnini qeyd etmək olar: "Bu fənnin tədrisində tələbələr dünya təhsil sisteminin tendensiyalarını, ayrı-ayrı qabaqcıl ölkələrin təhsil təcrübəsini, ümumi, invariant xüsusiyyətlərini, sosial-iqtisadi islahatların tələblərini, milli dəyərləri şərh edir, təhsil sisteminin, səriştəyə əsaslanan şəxsiyyətyönümlü təhsil məzmununu, texnologiyaların yeniləşdirilməsinin cəmiyyət üçün əhəmiyyətini dərk edir, Şərqdə və Qərbdə təhsilin xüsusiyyətlərini, Azərbaycan təhsil fəlsəfəsini qədim və orta əsrlərdəki xüsusiyyətlərini, fəlsəfi cərəyanları – praqmatizm, ekzistensializm, essensializm, neotomizm, neopozitivizmi fərqləndirir." Bu fənn üzrə 60 auditoriya saatı nəzərdə tutulur və yuxarıda təqdim olunanlar fikrimizcə, kifayət qədər sistemsiz, əlaqəsiz şəkildə ümumi fənn adı altında toplanan həm humanitar, həm də sosial fənlərin fərqli sahələrinə aid olan mövzuların tədrisi, məqsəd və hədəfi aydın deyil. Məsələn, açıq sual yaradan məqam ondan ibarətdir ki, neotomizm haqqındakı biliklər bu fənn üçün, daha geniş mənada isə ibtidai sinif müəlliminin formalaşması baxımından hansı əhəmiyyətə malikdir?

Digər tərəfdən, bəzi fənlərin - təhsil və pedaqoji fikir tarixi, pedaqogika, innovativ pedaqogika, tərbiyə işinin təşkili və təhsil fəlsəfəsi fənləri arasında mövcud olan məzmun təkrarları da müşahidə olunur. Bu fənlər arasındakı əlaqələrə baxıldıqda, onların əksəriyyətinin tədrisi zamanı eyni mövzuların bir qayda olaraq fərqli adlar altında təqdim olunduğu görünür. Bu da tələbələr üçün lazımsız yüklənməyə səbəb olur. Məsələn, pedaqogika fənni daxilində tərbiyə işinin təşkili və pedaqoji fikir tarixinin əsas məsələləri öz əksini tapır, buna görə onların ayrıca bir fənn kimi tədris olunması nə dərəcədə məqsədəuyğundur? Eyni zamanda, innovativ pedaqogika anlayışı paradoksal səslənir, çünki müasir pedaqogikanın əsas məqsədinin daim yenilikçi yanaşmaların tətbiqinə yönəldiyini nəzərə alaraq, milli kurrikulumdan kənar fərqli pedaqoji metod və yanaşmalara dair ayrıca bir fənnin əlavə edilməsi daha məqsədəmüvafiq olardı.

Eyni zamanda, öncəki abzasda qeyd olunan fənlərə çoxsaylı kreditlərin ayrılması, tələbələrin daha praktiki və peşəkar bacarıqlara yönəlmiş tədris imkanlarını məhdudlaşdırır. Məsələn, təhsil fəlsəfəsi kimi fənlər nəzəri əhəmiyyət kəsb etsə belə, ibtidai sinif kurrikulumu ilə əvəz oluna bilər və bu daha çox praktik dəyər qazandırar. Həmçinin, innovativ pedaqogika və pedaqoji fikir tarixi, ümumi pedaqogika fənni çərçivəsinə inteqrasiya edilə bilər ki, bu da təkrarçılığı aradan qaldırar və tələbələrin dərs yükünü yüngülləşdirər.

Ümumiləşdirərək qeyd etmək lazımdır ki, bu fənlərin adıkeçən "050107-İSM" ixtisasının strukturuna daxil olunmasının bir daha nəzərdən keçirilməsi zəruridir. Fikrimizcə, təhsil proqramlarında nəzəriyyədən çox praktikanın üstünlük təşkil etməsi, ibtidai sinif müəllimləri üçün daha faydalı olardı. Belə bir dəyişiklik təhsil sistemində səmərəliliyi artırmaqla yanaşı, tələbələrin gələcəkdə tədris mühiti üçün daha yaxşı hazırlaşmasını təmin edə bilər. Bu baxımdan, adıkeçən ixtisasda nəzərə alınması gərəkən əsas prinsip fənlərin təkrarçı məzmununun aradan qaldırılması və praktik, öyrədici yanaşmaların üstün tutulmasıdır.

Xülasə olaraq bildirmək istərdik ki, yuxarıda qeyd olunan "050107-İSM" ixtisasının məzmunu ilə bağlı problemlər ATM-lər tərəfindən aradan qaldırılmalıdır. Bu da həmin ixtisasın dərin və detallı təhlili və sahə üzrə mütəxəssislərin ümumi səyi nəticəsində bilavasitə ixtisas üzrə kompetensiyalara əsaslanaraq müvafiq PTN və FTN-in yenidən işlənməsini tələb edir və PTN – FTN-lərin uzlaşma matrisi əsasında tədris prosesinin təşkili zamanı əldə edilməlidir. Nəhayət, xüsusi vurğulanmalıdır ki, "İSM" bir ixtisas olaraq ümumtəhsil sisteminin sağlam bünövrəsini yaradan mütəxəssisin hazırlanmasını təmin edən əsas faktorlardan biri olduğundan sözügedən ixtisas üzrə Təhsil Proqramının keyfiyyət təminatına da ciddi önəm verilməlidir.

# Ali təhsildə daxili keyfiyyət təminatı üçün insan kapitalının inkişafı: strukturlaşma zərurəti və çağırışlar



**SEVİL İMANOVA**
Azərbaycan Texniki Universiteti,
Rektorun Strateji məsələlər və Kolleclərlə iş üzrə müşaviri

Azərbaycan ali təhsilində son on ildə nəzərəçarpan dəyişikliklər baş verir. Keyfiyyət təminatı (KT) institusional əsaslar qazanır, akkreditasiya prosesi müasirləşir, ESG standartlarına uyğunlaşma artır, universitetlərin strukturunda keyfiyyət idarəetməsi üzrə bölmələr yer almağa başlayıb. Lakin aparılan araşdırmalar, region təcrübəsi və beynəlxalq qiymətləndirmə çərçivələri bir daha göstərir ki, KT sistemlərinin effektivliyini müəyyən edən əsas amil nə infrastruktur, nə standartlar, nə də mexanizmlərdir. Əsas amil insan kapitalı və bu kapitalın peşəkarlığıdır.

Bu gün Azərbaycanda keyfiyyət təminatı sistemi formalaşmış olsa da, onun dayanıqlığı və səmərəliliyi keyfiyyət təminatı üzrə mütəxəssislərin hazırlıq səviyyəsi, praktiki bacarıqları və institusional dəstəyin adekvatlığından birbaşa asılıdır. Keyfiyyət təminatı sahəsində ənənəvi yanaşma uzun müddət sənədləşmə, hesabatlar hazırlamaq, prosedurlar yaratmaq, audit prosesinə hazırlıqlar kimi istiqamətlərə üstünlük verib. Ənənəvi yanaşma KT sistemini müəyyən qədər funksional edir, lakin onu inkişaf etdirən, təkmilləşdirən və idarə edən mədəniyyəti yaratmır. Dünya təcrübəsində KT sadəcə sənədləşmə işi kimi qəbul olunmur – əksinə, o, idarəetmə, planlaşdırma, təhlil, rəqəmsallaşma və akademik mühitlə bağlı liderlik funksiyalarını özündə ehtiva edir.

Müasir ali təhsil yanaşmasına görə KT mütəxəssisi:

**Hadisələri deyil, sistemləri düşünür.** KT mütəxəssisi yalnız fərdi problemlərə reaksiya vermir; o, həmin problemin arxasında duran mexanizmləri araşdırır. Bu yanaşma mikro problemlərin deyil, sistemin bütövlükdə necə işlədiyini anlamağa imkan yaradır. Qərarvermə prosesi hadisələrin təsviri ilə deyil, onların səbəb-nəticə əlaqələrinin təhlili ilə formalaşır.

**Prosesi deyil, nəticəni ölçür.** KT mütəxəssisi yalnız prosedurlara uyğunluğu qiymətləndirmir. Müasir yanaşmada əsas məqsəd universitetin müxtəlif fəaliyyətlərinin nəticələrini ölçmək və bunların davamlı təkmilləşdirilməsinə nail olmaqdır.

**Reaksiya vermir, öncədən planlayır.** Ənənəvi yanaşma problemi gördükdə aradan qaldırmağa yönəlib. Müasir KT mütəxəssisi isə riskləri proaktiv şəkildə analiz edərək, dəyişiklikləri öncədən planlayır. Bu, KT mütəxəssisindən yalnız situasiyanı idarə etməyi deyil, həm də strateji düşüncə və risklərin qarşısını alma bacarığı tələb edir.

**Audit obyekti deyil, idarəetmə funksiyasıdır.** KT artıq nəzarət mexanizmi kimi yox, idarəetmə və qərarvermənin ayrılmaz hissəsi kimi qəbul olunur. Bu, universitetin inkişaf strategiyasına, qərarların əsaslandırılmasına və idarəetmə mədəniyyətinə təsir edir. Son dövrlərdə müşahidələr onu göstərir ki, KT mütəxəssislərinin böyük hissəsi bu sistemə təsadüfi daxil olur, sistemli peşəkarlaşma yolu keçmir, nəticədə KT bir çox müəssisədə yalnız akkreditasiya dövründə aktivləşir.

Son illərdə ali təhsil sistemində KT strukturlarının sayı artsa da, onların funksionallığı ilə bağlı məhdudiyyətlər davam edir:

KT mütəxəssislərinin hazırlanması standartlaşdırılmayıb: ATM-lərdə KT şöbələrinin heyət sayı ciddi şəkildə fərqlənir, mütəxəssislərin kompe-

## Ali təhsildə daxili keyfiyyət təminatı üçün insan kapitalının inkişafı: strukturlaşma zərurəti və çağırışlar

tensiya profilləri, tələb olunan bacarıqlar və sertifikasiya mexanizmləri isə hələ də aydın müəyyən edilməyib.

**Kadr dövriyyəsi və institusional yaddaşın olmaması.** ATM-lərin çoxunda KT şöbəsində çalışan mütəxəssislərin tez-tez dəyişməsi sistemin davamlılığına ciddi təsir göstərir. Bu dəyişikliklər nəticəsində keyfiyyət təminatı fəaliyyəti bir çox hallarda hər dəfə yenidən qurulmalı olur və əvvəlki təcrübə, toplanmış məlumat, həyata keçirilmiş layihələr, nəticə və təhlillər müəssisənin institusional yaddaşında qorunmur. Nəticədə KT sisteminin inkişafında ardıcıllıq və davamlılıq pozulur, sistem mütəmadi olaraq başlanğıc mərhələsinə qayıdır. Bu isə uzunmüddətli perspektivdə keyfiyyət təminatının dayanıqlılığına mənfi təsir göstərir.

KT fəaliyyətlərinə yanaşma daha çox icra xarakterli olur. Bir çox ATM-də keyfiyyət təminatı funksiyası hələ də icraçı və texniki fəaliyyət kimi qavranılır. KT prosesinə əsasən sənədlərin hazırlanması, audit üçün məlumatların toplanması və hesabatların tərtib edilməsi kimi əməli işlərin məcmusu kimi yanaşılır. Belə yanaşma keyfiyyət təminatının əsas mahiyyətini kölgədə qoyur və onu yalnız nəzarət və hesabatvermə proseduru ilə məhdudlaşdırır. Halbuki, beynəlxalq ali təhsil sistemində KT daha geniş və strateji anlayışdır: o, universitetin tədris və idarəetmə proseslərinə yön verən, nəticələri ölçən, qərarverməyə təsir edən və institusional inkişafı dəstəkləyən bir mexanizm kimi qəbul olunur. Avropa ali təhsil məkanında KT mütəxəssislərinin fəaliyyətini müəyyənləşdirən xüsusi modellər mövcuddur və burada KT üç vacib prinsip üzərində qurulur:

**Mütəxəssis professionallaşdırılır.** Beynəlxalq təcrübə göstərir ki, KT üzrə mütəxəssis xüsusi hazırlıq, bacarıqlar və sistemli inkişaf tələb edən peşə sahəsidir. Mütəxəssis yalnız sənədlərlə işləyən əməkdaş deyil, ali təhsilin keyfiyyət idarəçiliyini dərk edən və onu təkmilləşdirə bilən ekspert kimi yetişdirilir. Bu proses sertifikasiya proqramları, davamlı təlimlər, mütəmadi inkişaf planları və professional inkişaf yolu ilə formalaşır. Beləliklə, keyfiyyət təminatı sahəsində kadr hazırlığı fərdi təşəbbüsdən institutlaşmış bir peşəyə çevrilir və bu sahədə fəaliyyət göstərənlər yalnız icraçı deyil, bilik və bacarığa əsaslanan qərarvericilərdir.

**Keyfiyyət təminatı sənədləşmə deyil, liderlik funksiyasıdır.** KT sisteminin mahiyyəti sadəcə audit və hesabatların hazırlanmasından ibarət deyil. Müasir universitet idarəetmə modelində KT birbaşa qərarvermə prosesinə təsir edən strateji funksiyadır. Bu struktur təşkilatın akademik və idarəetmə fəaliyyətində aktiv iştirak edir, tədris keyfiyyətini qiymətləndirir, nəticələri ölçür və inkişaf istiqamətlərini müəyyənləşdirir. Beləliklə, KT yalnız nəzarət edən mexanizm deyil, idarəetmə və transformasiya mərkəzi kimi çıxış edir.

**Keyfiyyət təminatı mədəniyyətə çevrilir.** Keyfiyyət təminatı yalnız prosedurlar və qaydalar toplusu kimi deyil, idarəetmə və tədris mədəniyyətinin əsas elementi kimi qəbul olunur. Bu mədəniyyət tədbirlərin epizodik şəkildə deyil, sistemli və davamlı formada həyata keçirilməsini tələb edir. Universitetdə KT-nin dəyərə çevrilməsi yalnız tələbələrə yönəlik proseslərdə deyil, müəllim fəaliyyətində, idarəetmə qərarlarında, resursların planlaşdırılmasında və akademik mühitin formalaşdırılmasında özünü göstərir. Başqa sözlə, keyfiyyət təminatı yalnız qurumun fəaliyyətinə nəzarət etməyə deyil, onu dəyişdirən və inkişaf etdirən dəyər sisteminə çevrilir.

Azərbaycan ali təhsil sistemində keyfiyyət təminatı sahəsində insan kapitalının inkişafını məhdudlaşdıran bir neçə əsas problem diqqəti cəlb edir. İlk növbədə, KT mütəxəssisi üçün tələb olunan bacarıqları müəyyən edən vahid kompetensiya

## Ali təhsildə daxili keyfiyyət təminatı üçün insan kapitalının inkişafı: strukturlaşma zərurəti və çağırışlar

çərçivəsi mövcud deyil. Analitik düşüncə, məlumatlarla işləmə bacarığı, kurrikulumların dizayn edilməsi, tələbə mərkəzli yanaşma, proseslərin planlaşdırılması və daxili audit kimi funksiyalar KT əməkdaşının işinin əsasını təşkil etməli olduğu halda, hazırkı mərhələdə bu bacarıqlar sistemləşdirilmiş formada müəyyən edilməyib. Bu isə mütəxəssis hazırlığının strukturlaşmasına və standartlaşdırılmasına mane olur.

Bundan əlavə, KT əməkdaşlarının təlim və inkişafı çox zaman şəxsi təşəbbüsə əsaslanır və institusional xarakter daşımır. Əməkdaşlar sahə üzrə bilik və bacarıqlarını təsadüfi şəkildə, fərdi səylərlə formalaşdırır, beləliklə də peşəkarlaşma prosesi müəssisə səviyyəsində dəstəklənmir. Nəticədə, KT fəaliyyətləri müəyyən dövrlərdə aktivləşən, lakin uzunmüddətli və planlı inkişaf strategiyasına söykənməyən prosesə çevrilir.

KT hələ də yalnız icraedici funksiyaya malik administrativ struktur kimi qəbul olunur və onun institusional inkişafda, strateji qərarvermədə və idarəetmə mədəniyyətinin formalaşmasında oynadığı rol yetərincə dəyərləndirilmir.

Beləliklə, ilk olaraq, KT mütəxəssisinin fəaliyyətini müəyyən edən və onun peşəkar bacarıqlarını standartlaşdıran milli kompetensiya çərçivəsinin hazırlanması vacibdir. Belə bir çərçivə mütəxəssisin analitik düşünmə bacarığını, məlumatların ölçülməsi və təhlil edilməsi üzrə bilik və vərdişlərini, habelə rəqəmsal KT və data analitikası ilə işləmə qabiliyyətini aydın şəkildə təsbit etməli, KT fəaliyyətini sistemli və ölçülə bilən hala gətirməlidir.

Bununla paralel şəkildə KT mütəxəssisləri üçün peşəkar inkişaf və karyera yolu modelinin formalaşdırılması da son dərəcə əhəmiyyətlidir. KT sahəsində çalışan əməkdaşların təsadüfi deyil, mərhələli şəkildə hazırlanması, başlanğıc səviyyədən ekspert səviyyəsinə qədər yüksəliş imkanlarının müəyyənləşdirilməsi və bu prosesin sertifikasiya, ixtisasartırma və peşəkar inkişaf proqramları ilə dəstəklənməsi onların fəaliyyətinin institusional xarakter almasına səbəb olacaq.

Nəhayət, keyfiyyət təminatı əməkdaşlarının təlim və inkişafını dəstəkləyəcək əməkdaşlıq platformasının yaradılması zəruridir. Bu platforma ATM, TKTA və akkreditasiya agentlikləri arasında əməkdaşlığa əsaslanmalı, praktiki seminarlar, təcrübə mübadiləsi, TNE proqramları üzrə təlimlər, kurrikulum və qiymətləndirmə modulları kimi fəaliyyətləri əhatə etməli və KT sahəsində çalışan mütəxəssislərin real iş təcrübəsi ilə nəzəri biliklərini birləşdirməsinə şərait yaratmalıdır. Azərbaycanın ali təhsil mühitində KT sahəsində yeni mərhələyə keçidin əsas şərti mütəxəssis hazırlığının standartlaşdırılması, inkişaf etdirilməsi, peşəkarlaşdırılması və əməkdaşlıq mədəniyyətinin gücləndirilməsidir.

Təhsildə Keyfiyyət Təminatı Agentliyi

Çağrı Mərkəzi
146-8

info@tkta.edu.az

www.tkta.edu.az

tktaeduaz

tktaeduaz

TKTA

tktaeduaz

tktaeduaz